**UOT: 343.2/.7**

## ZOR TƏTBİQ ETMƏKLƏ ÖZGƏNİN ƏMLAKINI TALAMA ƏMƏLLƏRİNİN ANLAYIŞI

**A.İ.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***aygun_aliyeva83@mail.ru***

*Məqalədə zor tətbiq etməklə özgənin əmlakını talama əməllərinin anlayışı, bu əməllərin törədilməsi nəticəsində bir tərəfdən mülkiyyətçinin əmlak hüquqlarına, digər tərəfdən isə zorakı hərəkətlərin tətbiqi nəticəsində insanın həyat və sağlamlığına ziyan vurulması və bəzən də həyatdan məhrum edilməsi nəzərdən keçirilir.*

**Açar sözlər:** talama, oğurluq, zorakılıq, mülkiyyət hüququ

Zor tətbiq etməklə özgənin əmlakını talama əməlləri mülkiyyət əleyhinə olan cinayətlərin müstəqil növünü təşkil edən ictimai təhlükəli kriminal əməllərdir. Bu əməllərin yüksək ictimai təhlükəliliyi onunla izah edilir ki, həmin cinayətlərin törədilməsi nəticəsində bir tərəfdən mülkiyyətçinin əmlak hüquqlarına, digər tərəfdən isə zorakı hərəkətlərin tətbiqi nəticəsində insanın həyat və sağlamlığına ziyan vurulur, bəzən o, həyatdan belə, məhrum edilir.

Zor tətbiq etməklə özgənin əmlakını talama da oğurluqdur, lakin törədilmə üsulu baxımından özünəməxsus elementlərin məcmusundan ibarət olan oğurluqdur. Zor tətbiq etməklə özgənin əmlakını talama anlayışına yanaşmanın müxtəlifliyi həmişə diskussiya doğurmuşdur.

Mülkiyyət əleyhinə olan cinayətlər içərisində talama əməlləri öz ictimai təhlükəlilik dərəcəsindən yüksək olmasına görə fərqləndirilir. Mülkiyyət iqtisadi kateqoriya kimi predmet və əşyalarda maddiləşdiyinə görə, mülkiyyət hüququ və əşya hüququna aid edilir. Məhz bu səbəbdən mülkiyyətlə bağlı müxtəlif obyektlərə qəsd edən talama cinayətlərini çox vaxt həm də əmlak cinayətləri adlandırırlar. Belə cinayətkar qəsdlər təqsirkarın maddi aləmin əşyalarını qanunsuz olaraq götürməsində, ələ mənimsənilməsində və ya öz xeyrinə keçirməsində ifadə olunur.

Ümumiyyətlə, mülkiyyət əleyhinə olan cinayətlərin bir növü kimi talama dedikdə, özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və

(və ya) özünün və ya başqasının (üçüncü şəxslərin) xeyrinə keçirmə başa düşülür (1, 128).

Azərbaycan SSR-in 1960-cı il Cinayət Məcəlləsində «talama» termindən ilk dəfə sosialist (dövlət) mülkiyyəti əleyhinə olan cinayətkar qəsdlərin daxil edildiyi II fəslin bir maddəsində – 83-cü maddədə (dövlət əmlakını və ya ictimai əmlakı oğurlama yolu ilə talama) istifadə edilmişdir. 7 aprel 1998-ci il tarixli Qanunla həmin Cinayət Məcəlləsinə edilən əlavə və dəyişikliklərədək «talama» terminindən həm də Cinayət Məcəlləsinin II fəslinin (bu fəsil sonralar «Dövlət mülkiyyəti və ictimai mülkiyyət əleyhinə olan cinayətlər» adlandırılıb) aşağıdakı maddələrində istifadə edilmişdir:

- 84-cü maddə – soyğunçuluq yolu ilə dövlət əmlakını və ictimai əmlakı talama;
- 85-ci maddə – dələduzluq yolu ilə dövlət əmlakını və ictimai əmlakı talama;
- 86-cı maddə – mənimsəmə, israf etmə və ya quldurluq mövqeyindən sui-istifadə etmə yolu ilə dövlət əmlakını və ictimai əmlakı talama;
- 87-ci maddə – dövlət əmlakının və ya ictimai əmlakın xırda talanı;
- 88-ci maddə – dövlət əmlakını və ya ictimai əmlakı talama məqsədi ilə quldurluq;
- 88-1-ci maddə – dövlət əmlakını və ya ictimai əmlakı xüsusilə külli miqdarda talama.

1960-cı il CM-sində vətəndaşların şəxsi mülkiyyəti əleyhinə olan cinayətlərin daxil edildiyi V fəslin (bu fəsil sonralar «Xüsusi mülkiyyət əleyhinə olan cinayətlər» adlandırılıb) aşağıdakı maddələrində «talama» terminindən istifadə edilmişdir:

- 143-cü maddə – oğurluq;
- 144-cü maddə – soyğunçuluq.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında XIX əsrin astanasında hüquq sisteminin, o cümlədən qanunvericilik sisteminin təzələnməsi ilə bağlı aparılmış hüquqi islahatlar ölkənin, demək olar ki, bütün hüquq sahələrində qüvvədə olan məcəllələrin dəyişdirilməsi nəticəsində cinayətkarlıqlı mübarizədə xeyli irəliləyişlər baş verdi. Qazanılmış uğurlar nəticəsində Azərbaycanın cinayət qanunvericiliyi də bir sıra humanist və demokratik müddəalarla zənginləşdi.

Göstərilən tərəqqi gedişində Azərbaycan Respublikasının 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş CM-nin «Mülkiyyət əleyhinə olan cinayətlər» adlanan XXIII fəslində «talama» terminindən aşağıdakı qanun normalarında istifadə olunmuşdur:

- 177-ci maddə – oğurluq, yəni özgənin əmlakını gizli olaraq talama;
- 179-cu maddə – mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama;
- 180-ci maddə – soyğunçuluq, yəni özgənin əmlakını açıq talama;

- 183-cü maddə – xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talama.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 3 mart 2005-ci il tarixli 1 saylı qərarının 1-ci bəndinə uyğun olaraq talama dedikdə, özgə əmlakının tamah məqsədi ilə, hüquqazidd, əvəzsiz götürülməsi və bu əmlakın təqsirkarın və ya başqa şəxsin xeyrinə yönəldilməsindən ibarət hərəkətlər başa düşülür» (3, 67-71). Fikrimizcə, talamanın anlayışına verilmiş bu tərifdə onun bütün əlamətləri öz əksini tapmamışdır. Çünki talamanın anlayışı dedikdə, talamanın bütün növ və formalarına xas olan və onu digər növ cinayətlərdən fərqləndirən əlamətlərin qarşılıqlı məntiqi əlaqədə məcmusu tutulmalıdır.

Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, həmin anlayışda talamanın mülkiyyətçiyə və ya əmlakın sahibinə onların fondlarında yerləşən maddi sərvətlərin həcminin müəyyən hissəsinin azalması ilə əlaqədar real ziyan vurma əlaməti təsbit edilməmişdir. Digər tərəfdən, Ali Məhkəmənin izahında talamaya qanunda bu cür anlayışın verildiyi göstərilmişdir. Halbuki Azərbaycanın qanunvericiliyində Rusiya Federasiyasından asılı olaraq talamanın anlayışı müəyyən edilməmişdir (2, 125).

Rusiya Federasiyası mütəxəssislərinin tədqiqatlarından aydın olur ki, həmin ölkənin cinayət hüququ elmində talama anlayışına verilmiş təriflərin böyük əksəriyyətində bir-birinə oxşar əlamətlər ifadə olunur. Məsələn, Q.N.Borzenkovun və V.S.Komissarovun fikrincə, talamanın anlayışına verilmiş təriflərin əksəriyyətində aşağıdakı əlamətlər nəzərdə tutulmuşdur:

1) talama əməllərinin ümumiləşdirilmiş xarakteristikasını ifadə edən əlamətlər. Bu, əvvələn, talamanın bütün növlərini və formalarını əhatə edir və etməlidir; ikincisi, mülkiyyət əleyhinə olan digər cinayətlərə də şamil edilməlidir; üçüncüsü, talama əməllərinin başa çatması anını özündə əks etdirməlidir;

2) talama anlayışının təriflərində əməlin hüquqaziddiliyinə olan göstəriş (əməlin hüquqaziddiliyinin göstərilməsi);

3) talama əməllərinin, bir qayda olaraq, əvəzsiz xarakter daşıması;

4) qəsdin predmetinə (əmlaka) və onun mülkiyyətçisinin sahibliyində («əmlak fondunda») yerləşməsinə dair olan göstəriş;

5) talamanın subyektiv əlamətləri (təqsirin qəsd forması və tamah məqsədi) (8, 408).

Rusiya Federasiyasında talama anlayışına tərif ilk dəfə 1994-cü ildə RSFSR-in 1960-cı il Cinayət Məcəlləsinin 144-cü maddəsinin qeydində verilmişdir. RF-in hazırda qüvvədə olan CM-nin (həmin Məcəllə 1996-cı ildən qüvvədədir) oğurluğa görə məsuliyyət nəzərdə tutan 158-ci maddəsinin qeyd hissəsində «talama – tamah məqsədilə özgənin əmlakını hüquqazidd və ya əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və ya digər sahibinə ziyan vurmaqla götürmə və (və ya) təqsirkarın özünün və ya digər şəxslərin xeyrinə

keçirməsi» kimi təsbit edilmişdir. Talama anlayışının bu tərifi əslində cinayət-hüquqi doktrinada formalaşdırılmış tərifdir.

Azərbaycan Respublikası CM-nin Kommentariyasında da talama anlayışına eynilə Rusiyanın cinayət qanunvericiliyində nəzərdə tutulmuş məzmunda tərif verilmişdir. Belə ki, mülkiyyət əleyhinə olan cinayətlərin bir növü kimi talama dedikdə, özgənin əmlakını tamah məqsədi ilə hüquqazidd və əvəzsiz olaraq, həmin əmlakın mülkiyyətçisinə və başqa sahibinə ziyan vurmaqla götürmə və (və ya) özünün və ya başqa şəxslərin xeyrinə keçirmə başa düşülür (1, 118).

RF CM-nin 158-ci maddəsinin şərhində deyilir ki, oğurluqların hansı konkret formada törədilməsindən asılı olmayaraq, qanunun dediyi kimi o, götürülmüş əmlakın təqsirkarın və ya digər şəxslərin xeyrinə keçirilməsinin zahiri cəhətdən obyektivləşdirilməsindən ibarətdir. Özgənin əmlakını götürmə oğurluğa (gizli olaraq talamaya), dələduzluğa, soyğunçuluğa və quldurluğa o vaxt tipik olur ki, əməl faktiki olaraq qəsdin predmetini ələ keçirməklə başa çatır (6, 349). Bu da, məlum olduğu kimi, hüquqazidd götürmədən başqa bir şey deyildir.

Talama əməllərinin obyektiv əlamətləri də müasir cinayət hüququ elmində diqqət mərkəzində olan məsələlərdən biridir. Belə əlamətlər, onların məzmunu, demək olar ki, talama əməllərinin törədilməsi üsulları ilə əlaqələndirilir. A.İ.Boytsovun talama anlayışına verdiyi tərif əsasında talamanın obyektiv əlamətlərinə aşağıdakılar aid edilmişdir:

1) əmlakın mülkiyyətçidən və ya başqa sahibdən cinayət qanununda göstərilən üsullarla qanunsuz və əvəzsiz götürülməsi;

2) həmin əmlakın özünün və ya başqa şəxslərin xeyrinə keçirilməsi;

3) bununla da mülkiyyətçiyə və ya əmlakın sahibinə onların fondlarında yerləşən maddi sərvətlərin həcminin müəyyən hissəsinin azalması ilə əlaqədar olaraq real ziyan vurulması;

4) əmlakın götürülməsi ilə dəymiş maddi ziyanın arasında səbəbli əlaqənin mövcud olması (4, 106).

Göstərmək zəruridir ki, talamanın qeyd edilən subyektiv əlamətləri onların bütün növləri və formaları üçün ən xarakterik əlamətlər hesab edilməlidir. Şübhəsiz ki, həmin əlamətlərdən, heç olmasa, birinin olmaması talama əməlinin mövcudluğunu istisna edir.

Zor tətbiq etməklə özgənin əmlakını talama əməli Azərbaycan Respublikası CM-nin 182-ci maddəsinin tərkib əlamətlərindən biri qismində nəzərdə tutulmuşdur. Yəni təhlil edilən talama hədə-qorxu ilə tələb etmənin üzvi tərkib hissəsidir.

Azərbaycan Respublikası CM-nin 182.1-ci maddəsinə uyğun olaraq hədə-qorxu ilə tələb etmə dedikdə, zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin

əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmək nəzərdə tutulur.

Bu əməlin yüksək ictimai təhlükəliliyi ondan ibarətdir ki, həmin maddədə nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində təqsirkar zərərçəkmiş şəxsin təkcə əmlakına və əmlaka olan hüquqlarına deyil, eyni zamanda onun və ya onun yaxın qohumlarının sağlamlığına, şərəf və ləyaqətinə qəsd edir, həmin cinayətkar qəsdi ilə zərərçəkmişin və ya onun yaxın qohumlarının sağlamlığı, şərəf və ləyaqətini təhlükə altına alır. Sadalanan bütün bu hallar cinayət qanunu ilə mühafizə edilən mənəvi dəyərlərdən ibarətdir.

Zor tətbiq etməklə özgənin əmlakını talama əməlləri hüquqazidd və qanunsuz olaraq götürülən əmlakın substansiyasını zorakı üsullarla pozma hərəkətləri vasitəsilə realizə olunur. Ona görə də, təqsirkar öz cinayətkar niyyətini həyata keçirmədən ötrü ən müxtəlif fiziki zor göstərmə vasitə və üsullarından istifadə etməli olur.

Hüquq ədəbiyyatında belə bir mülahizə də geniş yayılmışdır ki, zor tətbiq etməklə özgənin əmlakını talamada, adından göründüyü kimi, təqsirkar əmlakı ələ keçirməzdən qabaq zor tətbiq etməlidir. Deməli o, buna qabaqcadan hazır olur və cinayətkar hərəkətlərini planlı şəkildə ardıcıllıqla reallaşdırır (7, 409-416).

Fikrimizcə, bu zaman iki müstəqil cinayətkar niyyətin gerçəkləşdirilməsi məqsədi güdülür. Belə ki, təqsirkar özgənin əmlakını ələ keçirmək üçün zorakı hərəkətlər edir. Bu, artıq ictimai təhlükəli əməllərdən birinin törədilməsidir. Digər tərəfdən belə zorakı hərəkətlərin edilməsindən sonra əmlak ələ keçirilir, yaxud tələb edilir. Bu vaxt eyni zamanda da talama əməli mövcud olur. Beləliklə, zor tətbiq etməklə özgənin əmlakını talama ardıcıl olaraq iki mərhələdən keçir: a) əmlakın ələ keçirilməsi üçün fiziki zor tətbiq edilməsi və b) belə zorun tətbiq edilməsinin nəticəsi olaraq özgənin əmlakının ələ keçirilməsi.

Zor tətbiq etməklə talama əlamətlərinin predmeti qismində aşağıdakılar çıxış edə bilər:

a) əmlak;

b) əmlaka olan hüquq (zor tətbiq edən şəxsin zor göstərməklə tələb etməsini təsdiq edən iltizam, müqavilə və ya digər sənəd);

v) hədələyici hərəkətlər (zərərçəkmişin və ya onun yaxın qohumlarının haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmək hədəsi).

Təhlil edilən cinayətin bilavasitə obyektini mülkiyyət hüququ və başqa əmlak xarakterli mənafelər, əlavə obyektini isə şəxsiyyətin sağlamlığı, habelə şərəf və ləyaqəti təşkil edir. Hədə-qorxu ilə tələb etmənin predmetini yalnız əmlak deyil, həm də əmlaka olan hüquq və əmlak xarakterli hərəkətlər də təşkil edə bilər. Burada əmlak xarakterli hərəkətlər dedikdə, yerinə yetirilməsi təqsirkara müəyyən maddi fayda gətirən və ya adi halda yerinə yetirilməsi müəyyən xərc tələb edən işlər və ya xidmətlərin görülməsi nəzərdə tutulur.

Fərdin bir sıra konstitusiya hüquq və azadlıqları kimi, mülkiyyət hüququ da qanunla qorunan hüquqdur. Ona görə də, bir sıra müəlliflər belə hesab edirlər ki, mülkiyyət hüququ əleyhinə törədilən cinayət eyni zamanda və ilk növbədə mülkiyyətlə bağlı münasibətlərin pozulması ilə nəticələnir. Yeni mülkiyyət əleyhinə törədilən cinayətlər bütün hallarda həm də mülkiyyət münasibətlərinin pozulması ilə müşayiət olunur (5, 18). Mülkiyyətin hüquq münasibətləri isə ictimai münasibətlərin tərkib hissəsidir. Mülkiyyət münasibətləri də bütün digər ictimai münasibətlər kimi hüquqla tənzimləndiyi halda yuridik forma əldə edir və yalnız bundan sonra konkret mülkiyyətçinin və ya əmlak sahibinin öz mülkiyyətinə münasibətdə sahiblik, istifadə və sərəncam səlahiyyətlərini əks etdirən hüquq münasibətlərinə çevrilir.

Nəticə olaraq göstərmək istərdik ki, zor tətbiq etməklə özgənin əmlakını talama əməlləri əmlakı qanunsuz və əvəzsiz götürmədə, özgəninkiləşdirmədə ifadə olunur. Əməl konkret olaraq fiziki zor tətbiq etməklə törədilir. Bu da öz növbəsində zərərçəkmiş şəxsin həyat və səhhəti üçün təhlükəli olan, həm də təhlükəli olmayan zorakı hərəkətlərdə təzahür edə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı: Digesta, 2006, 272 s.
2. Əliyev N.K. Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən talama əməlləri ilə cinayət-hüquqi mübarizə. Bakı: Hüquq ədəbiyyatı, 2006, 248 s.
3. «Hüquqi dövlət və qanun» jurnalı, 2005, № 3, s.67-71
4. Бойцов А.И. Преступления против собственности. СПб.: Юридический центр Пресс, 2002, 775 с.
5. Гаухман Л.Д., Максимов С.В. Ответственность за преступления против собственности. М.: Учебно-консультационный центр «ЮрИнфоР», 1997, 310 с.
6. Комментарий к уголовному кодексу РФ/Под общ. ред. Скуратова Ю.И. и Лебедева В.М. М., НОРМА-ИНФРА, 1996, 832 с.
7. Комментарий к УК РФ /Под ред Н.Ф.Кузнецовой. 2-е изд., испр.и доп. М., 1998, 878 с.
8. Курс уголовного права. Особенная часть, Т. 3 / Под ред. Г.Н.Борзенкова и В.С.Комиссарова. М.: Зерцало, 2002, 470 с.


## ПОНЯТИЕ ХИЩЕНИЙ ЧУЖОГО ИМУЩЕСТВА, СОВЕРШЕННЫХ С ПРИМЕНЕНИЕМ НАСИЛИЯ


**А.И.АЛИЕВА**


### РЕЗЮМЕ


В представленной статье освещаются вопросы использования понятий «хищение» и «применение насилия» при формировании составов преступлений против собственности. Автор указывает, что не все составы деяний, определяющих ответственность за преступления против собственности, включают признаки хищения, что не позволяет использовать понятие «хищение» в качестве видового объекта.

Понятие «хищение» в Российской Федерации имеет законодательное определение.

В статье указывается, что применение насилия при хищении характеризует способ совершения преступления и используется для более справедливой дифференциации уголовной ответственности в ст. 178-183 УК.

**Ключевые слова:** хищение, кража, насилие, право собственности

## THE CONCEPT OF PLUNDER OF PROPERTY COMMITTED WITH VIOLENCE

**A.I.ALIYEVA**

### SUMMARY

The present article highlights the use of the concepts of "plunder" and "violence" in the formation of crimes against property. The author points out that not all acts determining responsibility for crimes against property, include signs of plunder, and this prevents the use of the concept of "plunder" as a specific object.

The concept of "plunder" in the Russian Federation has a legislative definition.

The article states that the use of violence for plunder characterizes modus operandi and is used for a more equitable differentiation of criminal responsibility in Articles 178-183 of the Criminal Code.

**Key words:** embezzlement, theft, violence, the right to property